https://doi.org/10.59849/3006-2403.2023.9.112
UOT 82-1. 512. 162

*Təranə Füzuli qızı Verdiyeva,*
*İlahə Ramiz qızı Zeynalova*
*AMEA Gəncə Bölməsi, Nizami Gəncəvi Mərkəzi*
*Gəncə ş. H.Əliyev pr., 419*
*E-mail: tarana.verdiyeva.83@mail.ru*

# NİZAMİ GƏNCƏVİ İRSİNİN YORULMAZ TƏDQİQATÇISI XƏLİL YUSİFLİ

*Məqalədə nizamişünas alim Xəlil Yusiflinin elmi yardıcılığından bəhs edilir. Alimin xüsusilə kitabları qeyd olunaraq əsərlərdəki əsas mətləbi diqqətə çatdırılmışdır.*

*Açar sözlər:* Nizami Gəncəvi, Xəlil Yusifli, alim, Xəmsə, əsər

O böyük, ağıllı, ayıq hökmdar,
Öz şahlıq taxtında tutarkən qərar,
Əmr etdi, verildi belə bir fərman:
Alimdir gözümdə ən əziz insan [1, s.239].

Nizami Gəncəvi "İskəndərnamə"

Dahi Azərbaycan şairi Nizami Gəncəvinin bu fikirləri müstəqil Azərbaycanın yaradıcısı, ulu öndərimiz Heydər Əliyevin fəaliyyətində açıq şəkildə özünü göstərmişdir. Onun həm böyük şəxsiyyətlərimizə, həm də görkəmli alimlərimizə bütün fəaliyyəti boyu göstərdiyi diqqət və qayğı milli-mənəvi dəyərlərimizə hörmətinin bariz nümunəsidir. Sözsüz ki, bu da daha bir ziyalı müdrikliyinin göstəricisidir.

Bəli, tarix boyu cəmiyyətdə sayılıb-seçilən, yüksək mövqeyə, hörmətə layiq görülən insanlar məhz alimlər olmuşlar.

Bir şəxsin adının qarşısına alim yazılarsa, demək həmin insan həyatını elmə həsr etmişdir. Bu isə o deməkdir ki, alimin elmi, biliyi tükənməzdir. Təsadüfi deyil ki, "Əl-Alim" ifadəsinin mənasını araşdırarkən oxuyuruq ki, bu ad hər şeyi bilən, elminin sonu olmayan, heç bir şey elmindən gizli qalmayan deməkdir [8, https://az.wikipedia.org/wiki/Alim_(islam)].

Daim axtarışda olan alim zəkasının əsas mahiyyəti budur ki, xüsusilə milli ədəbiyyat, mədəniyyət, tarix sahəsində yeniliklərə can atan tədqiqatçı öz fəaliyyəti ilə milli mənəviyyatımızı, ədəbi-mədəni irsimizi zənginləşdirir, genişmiqyaslı təbliğinə, onun gələcək nəsillərə olduğu kimi çatdırılmasına şərait yaradır.

Bir alimin fəaliyyəti xüsusilə o zaman dəyərlidir ki, alim həm də müəllimdir. Bu zaman o, tədqiqatla məşğul olmaqla bərabər, elmi biliklərini bölüşür və beləcə alim zəkası ilə elm aləminin gələcəyini nurlandırır.

Belə alim-müəllimlərdən biri də həyatını elmə, onun tədrisinə həsr edən nizamişünas professor Xəlil Yusifli idi. 1961-ci ildən elmi fəaliyyətə başlayan alim 1969-cu ildən artıq zəngin elmi biliklərə malik bir müəllim kimi Kirovabad Dövlət Pedaqoji İnstitutunda (indiki GDU) pedaqoji fəaliyyətə başlamışdır. Ömrünün çox hissəsini dahi şair, mütəfəkkir Nizami Gəncəvinin həyat və yaradıcılığının tədqiqinə həsr etmişdir. Yalnız Nizami Gəncəvinin ədəbi irsi və həyatı ilə bağlı yazdığı elmi əsərləri deyil, çox sayda önsöz və çevirmələrlə birlikdə tərtib etdiyi kitablar, müəllifi olduğu monoqrafiyalar, dərsliklər, elmi məqalələr də professor Xəlil Yusiflinin adı ilə bağlıdır. Sözsüz ki, bütün bunlar alimin elmi fəaliyyətinin genişliyindən xəbər verir. 1941-1947-ci illərdə əsası qoyulan Nizamişünaslıq elminin sayılıb

seçilən alimlərindən olan Xəlil Yusifli Nizami Gəncəvi irsinin öyrənilməsi işi ilə 1960-cı illərin əvvəllərindən məşğul olmağa başlamışdır. Bu sahədə ilk ciddi elmi işi “Nizaminin lirikası” (1968) [5] kitabı olmuşdur. Həmin kitabda o vaxta qədər görülmüş işləri tənqidi şəkildə araşdıraraq dahi şairin əldə olan lirik irsi haqqında geniş əhatəli bir iş ortaya qoyulmuşdur.

1982-ci ildə “Şərqdə İntibah və Nizami Gəncəvi” [7] kitabı nəşr olunmuşdur. Bu kitab doktorluq işinin bir hissəsi idi. Bildiyimiz kimi, İntibah şəhər mədəniyyətinin xüsusi inkişaf mərhələsinin nəticəsi olan bir hadisədir. Bu mərhələdə insan orta əsrlərə məxsus təfəkkür tərzindən xilas olur, özünü və dünyanı yenidən kəşf edir.

İnsan yem dalınca qaçmasın gərək,
Quşdan ayıq olsun, zirəkdən zirək [3, s. 42].

deyən Nizami hər bir əsərindəki hər bir cümlədə bir İntibah şairi olduğunu bəyan edir. Onun əsərlərində orta əsrlər təfəkkürünün fərdiyyətçi eybəcərliyi rədd edilir. Nizami Gəncəvi bir intibah şairi kimi gah yunan alimlərini bir yerə yığıb yaradılışın sirlərindən söhbət açır, gah da Makedoniyalı İskəndəri hamının bərabər olduğu ölkəyə aparır, özünün insan cəmiyyəti necə olmalıdır düşüncəsini nümayiş etdirir.

Bu tədqiqat işində nizamişünas alim tərəfindən Nizami Gəncəvinin dünya İntibah hərəkatının ən böyük nümayəndələrindən biri olduğu sübut edilməyə çalışılmışdır.

Azərbaycan Respublikasının prezidenti möhtərəm İlham Əliyev 2004-cü il yanvar ayının 12-də “Azərbaycan dilində latın qrafikası ilə kütləvi nəşrlərin həyata keçirilməsi haqqında” 56 №-li tarixi bir sərəncam imzalamışdır. Bu işlə əlaqədar prezident aparatında keçirilən yığıncaqda Nizami əsərlərinin yeddi cilddə çapa hazırlanması Xəlil Yusifliyə həvalə olunmuşdur. O, həmin işi qısa bir müddətdə yerinə yetirmiş və bir çox kitabların müqəddiməsini yenidən yazmışdır.

2008-ci ildə Xəlil Yusifli Azərbaycan Milli Elmlər Akademiyasının Gəncə Elmi Mərkəzində (indiki AMEA Gəncə Bölməsi) açılan “Nizamişünaslıq” şöbəsinə müdir təyin edilmişdir. Elə həmin il də professor X.Yusifli Nizami Gəncəvinin “Sirlər xəzinəsi” poemasının yeni tərcüməsini nəşr etdirmişdir. Bildiyimiz kimi, Nizami Gəncəvi əsərlərini əruz vəzninin ayrı-ayrı bəhrlərində yazmışdır. Xəlil Yusifli poemanı əsərin yazıldığı səri bəhrində tərcümə etməklə bərabər şairin fikirlərini daha dəqiq ifadə etməyə çalışmışdır. Tərcüməyə yazdığı geniş önsözdə isə şairin həyatı və “Sirlər xəzinəsi” poeması haqqındakı qənaətləri yer alır. Sonrakı dövrlərdə Nizaminin “Xosrov və Şirin”, “Leyli və Məcnun”, “Yeddi gözəl” poemalarını tərcümə edib nəşrinə nail olmuşdur.

2012-ci ildə Azərbaycan Respublikasının Prezidenti möhtərəm İlham Əliyevin sərəncamı və YUNESKO-nun qərarı ilə Nizami Gəncəvinin anadan olmasının 870 illik yubileyi qeyd edildi. Beynəlxalq miqyasda qeyd olunan bu tədbir Nizami Gəncəvi yaradıcılığının dünyaya tanıdılmasında mühim bir mərhələ oldu. Beynəlxalq Nizami Gəncəvi Mərkəzi yaradıldı. Dünya miqyasında Nizami irsinin təbliğində xidmətləri olan insanlara verilmək üçün “Nizami ordeni” təsis olundu. Gəncədə aparılan böyük quruculuq fonunda keçirilən bu tədbirlər, əlbəttə, unudulmaz əlamətdar bir hadisə idi. Gəncədə başlayan bu yubiley tədbirləri Bakıda Heydər Əliyev sarayında yekunlaşdı. Dünyanın bir çox ölkələrindən gəlmiş görkəmli dövlət xadimləri, alimlər və şairlər Gəncədə və Bakıda məruzələrlə çıxış etdilər. Nizami Gəncəvi poeziyasının gözəlliklərindən danışdılar. Həmin yubiley dövründə nəşr olunan çoxsaylı kitablardan biri də prof. Xəlil Yusiflinin “Nizami Gəncəvi: sələflər və xələflər” kitabı idi. Kitabda Nizaminin özündən əvvəlki və sonrakı mədəni və ədəbi irslə əlaqələri tədqiq olunur və dəyərləndirilir. Nizami poeziyasının bənzərsizliyi bir daha nəzərə çatdırılır.

Əlbəttə, Nizami Gəncəvinin anadan olmasının 875 illiyi ilə əlaqədar Gəncədə keçirilən beynəlxalq konfransı da unutmaq olmaz. Konfransda Misirdən, Türkiyədən, Hindistandan, Latviyadan və başqa ölkələrdən gələn qonaqlar iştirak edirdilər. Həmin konfransda AMEA Gəncə Bölməsi Nizami Gəncəvi Mərkəzinin direktoru Xəlil Yusifli "İntibah və Nizami Gəncəvi" mövzusunda məruzə etmişdir.

2016-cı ildə AMEA Gəncə Bölməsində iki kitab nəşr edilmişdir. Bunlardan biri "Renessans və Nizami Gəncəvi" adlanır. Rus dilində nəşr olunan bu kitabda Nizami yaradıcılığının intibah mahiyyətini araşdırmaq əsas məqsəd olmuşdur. Renessans və ya İntibah orta əsrlərin müəyyən mərhələsində şəhərlərin inkişafı ilə bağlı meydana gələn bir dünyagörüşüdür. Bu mərhələdə insanın özünə və bütövlükdə dünyaya münasibəti yeniləşir, sanki özünü və dünyanı kəşf edir, ehkamların zəncirindən xilas olur. Bu dövrdə insan çöldə vəhşilər arasında yaşamağı ehkamlar zəncirində boğulan insanlar arasında yaşamaqdan üstün tutur. İnsan yerin, göyün sirləri ilə maraqlanır. Nizami deyir:

Hər şeyi çalışıb öyrənək gərək,
Hər sirri açmaqda hünər göstərək [2, s. 28].

Renessansın tələbi, şüarı budur. O cümlədən Nizaminin təsvir etdiyi xoşbəxtlər ölkəsi əslində renessans dünyagörüşünün qurduğu, arzuladığı bir cəmiyyətdir. Nizami Gəncəvi ancaq "İskəndərnamə"də deyil, bütün əsərlərində xoşbəxtlər ölkəsində təsvir etdiyi ideala can atır. Onun təsvir etdiyi kərpickəsən qoca da, "Yaralı uşağın dastanı" hekayəsindəki ağıllı uşaq da, zalım padşah tərəfindən yırtıcı itlərə atılan gənc də həmin xoşbəxtlər ölkəsinin sakinləri, renessans dünyagörüşünün bəyəndiyi, qəbul etdiyi insanlardır. Professor Xəlil Yusifli "Renessans və Nizami Gəncəvi" kitabında bu həqiqəti əks etdirmişdir.

2016-cı ildə nizamişünas alimin nəşr etdirdiyi kitablardan biri də, "Nizami Gəncəvi əsərlərinin əlyazmaları dünya kitab xəzinələrində" [4] adlı əsərdir. Bu kitabı Cahangir Qəhrəmanov və Kamil Allahyarov yazmışdır. 1985-ci ildə rus dilində çap olunmuş kitab Nizami Gəncəvi irsinin dünya şöhrətinin ən yaxşı göstəricilərindən biridir. Xəlil Yusifli onu Azərbaycan və rus dillərində nəşrə hazırlamışdır. Azərbaycan Milli Elmlər Akademiyasının Gəncə Bölməsində çap edilmişdir. Kitaba "Xəmsə"nin bütöv əlyazmalarının, ayrı-ayrı poemaların, həmçinin şairin lirik şeirlərinin saxlanıldığı əlyazmaların qısa biblioqrafik təsviri daxil edilmiş, əlyazmalar üzərində işləyən 146 katibin adı qeyd edilmiş və «Xəmsə»yə çəkilmiş miniatürlərdən bir neçə nümunə verilmişdir.

2021-ci ilin "Nizami ili" elan olunması ilə bağlı Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevin verdiyi sərəncamla bağlı AMEA Gəncə Bölməsində dahi şairin irsinin tədqiqi və təbliğinə həsr edilmiş monoqrafiyalardan birinin müəllifi də məhz Xəlil Yusifli olmuşdur. Bu Nizami Gəncəvinin lirik şeirlərinin tədqiqinə həsr edilmiş "Nizaminin lirikası" [6] adlı monoqrafiya idi. Xəlil Yusiflinin ilk variantı 1968-ci ildə işıq üzü görmüş bu əsəri "Nizami Gəncəvi ili" ilə əlaqədar alimin dahi şair haqqında qələmə aldığı məqalələr də əlavə edilməklə yenidən nəşr olunmuşdur.

Monoqrafiya Nizami Gəncəvinin yaradıcılığında önəmli yer tutan lirik şeirlərinin tədqiqi və dahi şairin həyatı ilə bağlı aparılacaq yeni tədqiqatlar üçün qiymətli mənbədir.

Professor Xəlil Yusifli Nizami Gəncəvinin həyatı və əsərlərinin tədqiqinə həsr etdiyi məqalələrində dahi şairin humanistliyi, yaratdığı böyük sənət məktəbi, onun lirikasının təsiri, eyni zamanda böyük mütəfəkkirin ana dilində şeir yazması haqqındakı məsələlərə toxunmuşdur. Diqqəti cəlb edən məqalələrdən bəzilərində isə Nizami irsinin müasir tədqiqi, əsərlərinin tərcümə və nəşri ilə bağlı fikirlər öz əksini tapmışdır. Belə ki, Nizaminin poetik prinsiplərinə, şairin yazıb, yaratdığı fars dilinə yaxşı bələd olan alimin dahi mütəfəkkirin əsərlərinin tərcümələrində zaman-zaman yol verilmiş səhvlərə göstərdiyi tənqidi münasibət və

söylədiyi fikirlər yerində və doğrudur. Xəlil Yusiflinin həmin məqalələrdə işlətdiyi "havadan asılı qalır", "Hədəfə dəyməyən gülləyə bənzəyir" kimi ifadələri diqqəti cəlb edir və fikrin təsir gücünü artırır. Alimin fikrincə dahi şairin ədəbi irsinin öyrənilməsi və təbliği istiqamətində görülən işlərə diqqətlə yanaşmaq onu olduğu kimi başa düşmək, tərcümə etmək bu nadir sənət bahadırına ən ali hörmətdir. Bu prinsipə daim riayət etmək hər bir tədqiqatçının borcudur.

Professorun məqalələri Nizami Gəncəvinin etnik mənsubiyyəti ilə bağlı həqiqət və uydurmalar, dahi sənətkarın təvəllüd və ölüm tarixi, onun öz vətəni haqqında fikirləri, oğlu Məhəmmədin şairliyi və s. haqqındakı maraqlı məlumatlarla zəngindir.

Bütün bunlar elmi fəaliyyətinin önəmli hissəsini Nizami Gəncəvinin həyat və yaradıcılığının tədqiqinə həsr etmiş bir alim zəkasının bəhrəsidir. Xəlil Yusiflinin elmi irsi ilə tanışlıq dahi Nizami Gəncəvinin misli olmayan bədii dünyasına bir alim gözü ilə baxışdır. Bu elmi tədqiqat işləri gələcəkdə aparılacaq yeni-yeni araşdırmalar üçün dəyərli mənbə və elmi fikirləri işıqlandıracaq ALİM ZƏKASININ NURUDUR.

ƏDƏBİYYAT

1. Gəncəvi, N. İsgəndərnamə / Ön sözün müəl. və elmi red. X.Yusifli / N.Gəncəvi. – Gəncə: GDU, - 2012. - 664 s.
2. Gəncəvi, N. Leyli və Məcnun / Ön sözün müəl. və elmi red. X.Yusifli / N.Gəncəvi. – Bakı: Lider nəşriyyat,- 2004.- 288 s.
3. Gəncəvi, N. Yeddi gözəl / Ön sözün müəl. və elmi red. X.Yusifli / N.Gəncəvi. – Bakı: Lider nəşriyyat,- 2004.- 336 s.
4. Qəhrəmanov, C. V., Allahyarov, K. H. Nizami Gəncəvi əsərlərinin əlyazmaları dünya kitab xəzinələrində. [biblioqrafiya] / ruscadan tərc. ed., çapa haz. və red. X. H. Yusifli / - Gəncə: Elm, - 2016. - 246 s.
5. Yusifov, X. Nizaminin lirikası / red. M. Quluzadə / X. Yusifov. - Bakı: Azərbaycan SSR Elmlər Akademiyası, -1968. -273 s.
6. Yusifov, X. Nizaminin lirikası / tərt. A.Yusifli, T.Verdiyeva / X. Yusifov. - Bakı: Elm və təhsil, - 2022. -408 s.
7. Yusifov, X. Şərqdə intibah və Nizami Gəncəvi/red. Ə. Səfərli / X. Yusifov. - Bakı: Yazıçı, - 1982. -200 s.
8. Alim. https://az.wikipedia.org/wiki/Alim_(islam)

УДК 82-1. 512. 162

*Т.Ф.Вердиева, И.Р.Зейналова*
*Гянджинское отделение НАНА*
*Центр Низами Гянджеви*

## ХАЛИЛ ЮСИФЛИ, СПЕЦИАЛЬНЫЙ ИССЛЕДОВАТЕЛЬ НАСЛЕДИЯ НИЗАМИ ГЯНДЖАВИ

*РЕЗЮМЕ*

*Ключевые слова*: Низами Гянджеви, Халил Юсифли, учёный, Хамса, научная работа

В статье говорится о научном творчестве учёного Халила Юсифли. Особо были упомянуты книги учёного и доведено до сведения основное содержание работ.

UDC 82-1. 512. 162

*T.F.Verdiyeva, I.R.Zeynalova*
*Ganja Branch of ANAS*
*Nizami Ganjavi Center*

KHALIL YUSIFLI, A DEDICATED RESEARCHER OF THE LEGACY OF NIZAMI GANJAVI

*SUMMARY*

*Key words*: Nizami Ganjavi, Khalil Yusifli, scientist, Khamsa, scientific work

The article talks about the scientific work of scientist Khalil Yusifli. The scientist's books were especially mentioned and the main content of the works was brought to attention.

***Daxil oldu: 24.09.2023-cü il***